# Sülh uğrunda müharibə

(Əvvəli 1-ci səhifədə).

Azərbaycan uzun illərdir ki, Gürcüstanı böyük fayda gətirən nəhəng layihələrin iştirakçısına çevirib.

Ermənistan da dalandan yaxa qurtara, belə layihələrdən bəhrələnə bilər...

Amma əvvəlcə ağıllanmalı, sülhün şərtlərinə əməl etməli, özgələrin qoltuğuna sığınmaqdan əl çəkməlidir!

***Silahla Azərbaycanın üstünə gələnlər tabutla geri qayıdacaqlar!***

***Sülh yolu ilə əməkdaşlıq edənlər isə qazanacaqlar!***

* * *

O şey ki, xoşluqla alına bilər, onu zora çevirməyə ehtiyac yoxdur!

Ermənistandakılar da, onlara "qorxma" deyib ürək-dirək verənlər də, erməni diasporu da, qisasçılıq hissi ilə yaşayanlar da bir məsələni dəqiq bilməlidirlər:

* Getdi artıq o günlər!

* Bitdi "Böyük Ermənistan" xülyası!

* Nə dünya o dünyadır, nə də Azərbaycan keçmişdəki Azərbaycan!

***Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı möhtəşəm ordu 30 illik işğala 44 gündə son qoydu, düşmən ordusunu məhv etdi!***

*12 mindən çox erməni əsgər və zabiti, hətta generallar belə fərariyə çevrildi, döyüş meydanını qoyub qaçdılar.*

***Nə ABŞ-nin, nə Avropa İttifaqının, nə də Fransanın sözlərinə inanaraq ağlınızı itirməyin!***

*ABŞ-nin və Avropa İttifaqının ayırdığı vəsait, Fransanın göndərdiyi köhnə-kürüş hərbi texnika və ya öldürücü silahlarla nəyisə dəyişmək mümkün deyil!*

***Gürcüstanda və Ukraynada baş verənləri heç zaman unutmayın!***

***10 milyonluq Azərbaycanın qarşısında 3 milyonluq Ermənistan heç nədir!***

*Durbin götürərək bütün günü Azərbaycan ərazisinə baxan köhnə jandarma, casus və kəşfiyyatçılara da bel bağlamayın!*

***Cənab İlham Əliyevin dediyi kimi, bir güllə atılan kimi onların hamısı gəldikləri yerədək qaçacaqlar!***

*Azərbaycanın verdiyi sülh təklifləri həqiqəti əks etdirir, ədalətlidir, beynəlxalq hüquqa söykənir!*

***Sülh istəyimizin arxasında isə qüdrətli ordumuz dayanır!***

***Bunu isə heç zaman yaddan çıxarmayın!***

* * *

* Azərbaycan 30 il ərzində Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümid bəsləyərək gözlədi.

* Haqqa, ədalətə inanaraq gözlədi.

* Beynəlxalq hüquqa əməl ediləcəyinə inanaraq gözlədi.

* ATƏT-in Minsk qrupunun vəzifə borcunu yerinə yetirəcəyinə inanaraq gözlədi.

* Dünyanın ən böyük təşkilatı sayılan BMT-nin Təhlükəsizlik Şurasının öz qətnamələrinə əməl edəcəyinə inanaraq gözlədi.

***Eyni zamanda gözləyə-gözləyə öz işini görərək, mövqeyini də açıq bəyan etdi!***

***Prezident İlham Əliyev dəfələrlə hamının eşidəcəyi şəkildə bildirdi:***

* Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcək!

* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcək!

***İlham Əliyevin Azərbaycana rəhbərliyinin 20 ili ərzində:***

* Azərbaycan tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldi!

* Dünyada nüfuzu artdı, beynəlxalq qurum və təşkilatlarda onu müdafiə edənlər çoxaldı!

* Özünə güclü ordu yaradaraq onu ən müasir silahlarla silahlandırdı!

* Yeni gənc nəsil, Vətən uğrunda hər an şəhid olmağa hazır əsgər və zabitlər, xüsusi təyinatlılar yetişdi!

* Hücum diplomatiyasından hücum taktikasına keçdi!

***30 ildə bütün dünyanın sülh danışıqları ilə həll edə bilmədiyi münaqişəni 44 gündə hünərlə çözərək sülhün yolunu açdı!***

Ancaq Ermənistan və onun havadarları heç zaman unutmamalıdırlar ki, bu Zəfərin arxasında qüdrətli Azərbaycan və onun möhtəşəm ordusu dayanır!

*Ermənistan yaranmış fürsətdən istifadə edərək blokadadan çıxmalı, dövlətçiliyini xilas etməlidir!*

Sözünün sahibi olan cənab İlham Əliyev sözünü deyərək xəbərdarlıqlarını edib!

Adətən uğursuz sülh danışıqlarından sonra qalibiyyətli hərbi əməliyyatlar gəlir!

***Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin taktikasıdır!***

***Həm də dəfələrlə sınaqdan uğurla çıxmış taktikası!***

**"Azərbaycan"**

# Milli Qurtuluş Gününə həsr edilmiş tədbir







Milli Qurtuluş Günü münasibəti ilə ümumrayon tədbiri keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar və gənclər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsinə öz ehtiramlarını bildirmişlər.

# Milli qurtuluşdan dirçəlişə, tarixi zəfərdən böyük qayıdışa

Dövlətçilik tariximizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Bütün mənalı ömrünü xalqına və dövlətinə xidmətə həsr edən ulu öndərin şəxsiyyətinin əzəməti, gördüyü işlərin vacibliyi və böyüklüyü zaman keçdikcə daha da dərindən dərk edilir. Azərbaycan xalqı hər zaman Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Məhz buna görə də Ulu Öndərin irsini öyrənmək, təbliğ və tətbiq etmək qarşımızda duran vacib və aktuallığını itirməyən mühüm məsələdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “ Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb”.

Ulu Öndər Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə Azərbaycan dövlətçilik tarixinin ən parlaq səhifələrindən biri başladı. Ümummilli Liderin uzaqgörən ideyaları xalqımızı “Qurtuluş”dan “Dirçəliş”ə, Qarabağın işğaldan azad olunmasına və sürətli inkişafa gətirib çıxardı. Çox keçmədən dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların bir amal, bir ideya - azərbaycançılıq məfkurəsi ətrafında sıx birliyinin, həmrəyliyinin yaradılması üçün 16 dekabr 1991-ci ildə Ali Məclis tərəfindən “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” qərar qəbul olundu. Ulu öndər Heydər Əliyev 1992-ci ilin yanvarın 16-da Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün hərbi hissələrin Ali Məclisə tabe olması barədə qərar qəbul etdi. Bu qərarla regiondakı keçmiş Sovet bölmələrinə aid hərbi qulluqçular şəxsi əşyalarından başqa heç nəyi respublikadan çıxara bilməzdi. Bununla da Heydər Əliyev Naxçıvanın gələcək təhlükəsizliyini və Milli Ordu birləşmələrinin silah tədarükünü təmin etmiş oldu.

21 noyabr 1992-ci ildə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycanın gələcəyində mühüm rol oynayan Yeni Azərbaycan Partiyası təsis edildi. Yarandığı gündən ümumxalq partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin bəyan etdiyi kimi dünənin, bu günün və gələcəyin partiyası olduğunu sübut etdi.

1991-ci ildən Azərbaycanda cərəyan edən ziddiyyətli proseslər, o cümlədən ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurmasının güclənməsi onu göstərdi ki, ölkəni yaranmış vəziyyətdən yalnız ulu öndər kimi güclü lider xilas edə bilər. Ümummilli lider Heydər Əliyev 9 iyun 1993-cü ildə xalqın təkidli çağırışlarına cavab verərək Bakıya geri qayıdıb, 15 iyun 1993-cü ildə Azərbaycan Ali Sovetinin Sədri, 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildi və Azərbaycanın fəlakətlərlə üz-üzə qaldığı bir dövrdə həyatını təhlükəyə ataraq , xalqımızın tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu. Heydər Əliyev özünün həyat fəlsəfəsini belə izah edirdi: “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda , ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.

12 may 1994-cü ildə Ermənistanla cəbhədə atəşkəs elan edilməklə, ölkədə sabitlik əldə olunmasından sonra ulu öndər Heydər Əliyevin dünya siyasi arenasında daim “yarım addım” öndə olmaq bacarığı sayəsində 11 məşhur neft şirkəti Azərbaycana dəvət olundu. 20 sentyabr 1994-cü ildə Bakıda “Azəri-Çıraq-Günəşli” yataqlarının işlənməsi üzrə “Əsrin Müqaviləsi” imzalandı. 18 sentyabr 2002-ci ildə Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməli qoyuldu. Bununla paralel olaraq Bakı-Tbilisi-Ərzurum qaz kəməri də reallaşdırıldı . Yeni neft strategiyasının uğurlu icrası sahəsində ölkəmizin iqtisadi imkanları artdı və Azərbaycan Avropanın etibarlı tərəfdaşına çevrildi. 1996-cı ildə “Şahdəniz” qaz yatağı üzrə saziş neft-qaz sektoruna müstəsna həcmdə beynəlxalq sərmayə axınının başlanğıcını qoydu.

2004-cü ildən başlayaraq cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı Dövlət Proqramları qəbul edildi. Nəticədə paytaxt Bakı ilə yanaşı regionların da siması dəyişdi, yeni iş yerləri açıldı, işsizliyin səviyyəsi aşağı düşdü və ölkəmiz dinamik şəkildə inkişaf etməyə başladı. Ölkənin iqtisadi inkişafının davamlı olmasını siyasətinin təməl prinsipi olaraq dəyərləndirən Prezident İlham Əliyev güclü iqtisadiyyatın önəmi haqqında

(Ardı 3-cü səhifədə).